Non official translation / Qeyri-rəsmi tərcümə

MƏHKƏMƏ SİSTEMİNİN MÜSTƏQİLLİYİ VƏ QƏRƏZSİZLİYİ



AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI DEPARTAMENTİ

DG1

TEMATİK BÜLLETEN

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Non official translation / Qeyri-rəsmi tərcümə

Dərc olunma tarixi: Dekabr 2020-ci il

Son yenilənmə: May 2023-cü il

MƏHKƏMƏ SİSTEMİNİN

MÜSTƏQİLLİYİ VƏ QƏRƏZSİZLİYİ

Bu xülasələrin hazırlanmasına yalnız Avropa Məhkəməsinin Qərarlarının İcrası Departamenti cavabdehdir və onlara görə Nazirlər Komitəsi heç bir şəkildə cavabdehlik daşımır.

1. MƏHKƏMƏLƏRİN MÜSTƏQİLLİYİ 3

1.1. İcra hakimiyyətinə münasibətdə müstəqillik 3

1.2. Tərəflərə münasibətdə müstəqillik 5

1.3. Məhkəmələrin daxili müstəqilliyi 6

2. MƏHKƏMƏLƏRİN QƏRƏZSİZLİYİ 8

2.1 Məhkəmələrin obyektiv qərəzsizliyi 8

2.1.1. İş üzrə məsləhət və məhkəmə funksiyalarının həyata keçirilməsi 8

2.1.2. İş üzrə məhkəmə və məhkəmədənkənar funksiyaların həyata keçirilməsi 8

2.1.3. İş üzrə müxtəlif məhkəmə funksiyalarının həyata keçirilməsi 9

2.1.4. Maraqlar toqquşması daxil olmaqla şəxsi xarakterli situasiyalar 11

2.2 Məhkəmələrin subyektiv qərəzsizliyi 13

3. PROKURORLARIN MÜSTƏQİLLİYİ VƏ QƏRƏZSİZLİYİ 14

İŞLƏRİN SİYAHISI 16

Ədalətli məhkəmə araşdırması hüququ İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsi ilə təmin edilir. Bu hüququn effektiv həyata keçirilməsi xüsusilə tələb edir ki, hər kəs "onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə" işinin araşdırılması hüququna malik olmalıdır. Müstəqillik və qərəzsizlik prinsipləri bir-biri ilə sıx bağlıdır və işin hallarından asılı olaraq, onların Avropa Məhkəməsi tərəfindən birgə araşdırılması tələb oluna bilər. Onlar demokratiya və qanunun aliliyinin asılı olduğu institusional təminatlardır.

Dövlətlərin "müstəqil və qərəzsiz məhkəmə" vasitəsi ilə məhkəmə araşdırmasını təmin etmək öhdəliyi yalnız məhkəmə sistemi ilə məhdudlaşmır. Bu, həmçinin səviyyəsindən asılı olmayaraq icra, qanunvericilik və hər hansı digər dövlət orqanının üzərinə məhkəmələrin hökm və qərarlarına hörmət etmək və onlara əməl etmək öhdəliyinin qoyulmasını nəzərdə tutur. Məhkəmə sisteminin müstəqilliyi və qərəzsizliyinin konstitusion təminatı gündəlik inzibati münasibətlərə və praktikalara effektiv şəkildə daxil edilməlidir.

Hazırkı bülletendə milli məhkəmə sistemlərinin müstəqilliyini və qərəzsizliyini qorumaq və gücləndirmək məqsədilə Avropa Məhkəməsinin qərarlarının icrası kontekstində dövlətlər tərəfindən qəbul edilmiş və barəsində məlumat verilmiş tədbirlərdən nümunələr verilib. Buraya prokurorların müstəqilliyi və qərəzsizliyi ilə bağlı bölmə də daxildir, çünki onlar Avropa məhkəmə sistemlərinin tərkib hissəsini təşkil edir.

Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur.
Bu tərcümə Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti (QİD) ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin) məsuliyyət daşıması ilə və QİD-in öhdəlik daşımaması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir.

1. MƏHKƏMƏLƏRİN MÜSTƏQİLLİYİ

Məhkəmələrin müstəqilliyi qanunun aliliyinin ayrılmaz elementidir və məhkəmə sisteminin fəaliyyəti üçün zəruridir. O, insan hüquqlarına və fundamental azadlıqlara hörmət edilməsinin təminatıdır ki, bu da hər bir kəsin ədalət mühakiməsinə etimad göstərməsinə imkan verir. [1]

Məhkəmənin presedent hüququna əsasən, məhkəmənin müstəqilliyini, xüsusilə icra hakimiyyəti orqanından və işdə iştirak edən tərəflərdən müstəqil olub-olmadığını müəyyən etmək üçün, digər məsələlərlə yanaşı, aşağıdakılar nəzərə alınır: onun üzvlərinin təyin edilməsi qaydası və onların səlahiyyət müddətləri; kənar təzyiqlərə qarşı təminatların olması; və məhkəmə orqanının müstəqillik əlamətlərinə malik olub-olmaması. Məhkəmə qeyd etmişdir ki, icra hakimiyyəti və məhkəmə hakimiyyəti arasında səlahiyyətlər bölgüsü onun presedent hüququnda getdikcə daha çox əhəmiyyət kəsb edir.

1.1. İcra hakimiyyətinə münasibətdə müstəqillik

Dövlət Şurasının beynəlxalq müqavilələrin şərhi kontekstində müstəqilliyi: 1990-cı ildə Dövlət Şurasının plenar iclası mətni qeyri-müəyyən olan və ya birmənalı olmayan beynəlxalq müqavilələrin şərhi məsələlərini Xarici işlər nazirinə həvalə etmək təcrübəsindən imtina etməyi və bundan sonra icraatında olan işlərdə beynəlxalq müqavilələrin müddəalarını özü şərh etməyi qərara aldı. Beləliklə, o, bu məsələdə tam yurisdiksiya və icra hakimiyyətindən tam müstəqillik əldə etdi. O, konkret işdə icra hakimiyyətinin rəyi üçün müraciət etsə belə, həmin rəy onun üçün məcburi qüvvəyə malik olmayacaq.	***FRA / Beaumartin (15287/89)*** ***Yekun qərar 24/11/1994*** **Yekun qətnamə CM/ResDH(95)254**
Dəniz mübahisələri üzrə palataların müstəqilliyi: 2009-cu ildə "Dəniz mübahisələri üzrə palatalar haqqında" Qanuna dəniz mübahisələri üzrə palataların sədrlərinin və onların müavinlərinin Ədliyyə naziri tərəfindən Nəqliyyat və dənizçilik naziri ilə razılaşdırılaraq təyin edilməsi və vəzifədən azad edilməsi məsələsi ilə bağlı dəyişiklik edilərək yuxarıda qeyd edilən palataların hakimləri bu nazirlərdən asılı vəziyyətə salındı. İndi dəniz mübahisələri üzrə palata, "Ümumi məhkəmələr sistemi haqqında" Qanuna uyğun olaraq, Ədliyyə naziri tərəfindən palatalara təyin edilən peşəkar hakimlərdən (sədr və bir və ya bir sədr müavini) və qeyri-hakim köməkçilərdən ibarətdir.	***POL / Brudnicka və başqaları (54723/00)*** ***Yekun qərar 03/06/2005*** **Yekun qətnamə CM/ResDH(2011)141**
Qeyri-hakim köməkçilərin müstəqilliyini təmin etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş təminatların təkmilləşdirilməsi: "Məhkəmələrin təşkili haqqında" 2004-cü il tarixli Qanuna və Ali Magistratlar Şurasının "Məhkəmələr haqqında 2005-ci il tarixli daxili əsasnaməsi"nə əsasən, qeyri-hakim köməkçilər hakimlərin statusuna bənzər peşəkar status əldə etdilər və vəzifələrindən əsassız olaraq azad edilmələrinə qarşı qorunmuş oldular. Onlar həmçinin barələrindəki intizam tənbehi qərarlarından məhkəməyə şikayət edə bilərlər.	***RUM / Luka (34197/02)*** ***Yekun qərar 21/10/2009*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2014)66**
Mülki şəxslər və hərbi qulluqçular tərəfindən törədilmiş hüquqpozmalara dair işlərdə cinayət məhkəmələrinin müstəqilliyi: Hərbi məhkəmələr tərəfindən mülki şəxslərin məhkum edilməsinin qarşısını almaq üçün 2006-cı ildə Cinayət Prosessual Məcəlləsinə dəyişiklik edildi, həmin dəyişikliyə əsasən, hərbi qulluqçular və mülki şəxslər tərəfindən törədilən cinayətlərin bölünməz olduğu və ya əlaqəli olduğu bütün işlərə mülki məhkəmələr tərəfindən baxmalıdır. Bundan əlavə, 2002-ci ildə qəbul edilmiş "Polislərin statusu haqqında" Qanuna əsasən, polis	***RUM / Maszni (59892/00)*** ***Yekun qərar 21/12/2006***

[1] Bax: Nazirlər Komitəsinin CM/Rec(2010)12 saylı Tövsiyəsi: "Hakimlər: müstəqillik, səmərəlilik və vəzifələr".

əməkdaşları dövlət qulluqçusu oldular və buna görə də mülki məhkəmələr tərəfindən mühakimə olunurlar.	Yekun qətnamə CM/ResDH(2013)168
Hərbi məhkəmələrin yurisdiksiyasının məhdudlaşdırılması və sonradan ləğv edilməsi: "Hərbi məhkəmələrin yaradılması və prosedurları haqqında" Qanuna 2010-cu ildə edilmiş dəyişikliklərə əsasən, məhkəmə kollegiyasında hərbi qulluqçunun iştirakını tələb edən müddəa ləğv edildi. Bundan sonra hərbi məhkəmə kollegiyası yalnız üç hərbi hakimdən ibarət olmalı idi.	*TÜR / Bayrak (39429/98)* *Yekun qərar 24/09/2007* Fəaliyyət hesabatı Yekun qətnamə CM/ResDH(2018)22
2013-cü ildə "Hərbi intizam məhkəmələri haqqında" Qanuna edilən dəyişiklik hərbi intizam məhkəmələrinin yurisdiksiyasını müharibə zamanı baş verən intizam məsələləri ilə məhdudlaşdırdı. Bundan əlavə, sülh dövründə hərbi intizam məhkəmələrini əvəz edən hərbi intizam kollegiyaları azadlıqdan məhrum etmə ilə nəticələnən intizam sanksiyası tətbiq edə bilməzdilər.	*TÜR / Ibrahim Gurkan (10987/10)* *Yekun qərar 03/10/2012* Fəaliyyət hesabatı Yekun qətnamə CM/ResDH(2016)303
2017-ci ildə Konstitusiya dəyişikliyi ilə Ali Hərbi İnzibati Məhkəmə (AHİM) daxil olmaqla bütün hərbi məhkəmələr ləğv edildi. AHİM-in icraatında olan işlər ya Kassasiya Məhkəməsinə, ya da Dövlət Şurasına verildi.	*TÜR / Tanisma (32219/05)* *Yekun qərar 02/05/2016* Fəaliyyət hesabatı Yekun qətnamə CM/ResDH(2018)422
Dövlət təhlükəsizliyi məhkəmələrinin ləğvi: Bir sıra qanunvericilik və konstitusiya islahatları son nəticədə dövlət təhlükəsizliyi məhkəmələrinin ləğvinə gətirib çıxardı. 1999-cu il tarixli konstitusiya dəyişikliyi dövlət təhlükəsizliyi məhkəmələrinin sədrdən, iki daimi üzvdən və bir əvəzedici üzvdən ibarət olmasını nəzərdə tuturdu. Sonrakı qanunvericilik dəyişiklikləri ilə dövlət təhlükəsizliyi məhkəmələrində hərbi hakim və hərbi prokuror funksiyaları ləğv edildi, onları mülki hakimlər əvəz etdi.	*TÜR / Ciraklar (19601/92)* *Yekun qərar 28/10/1998* Yekun qətnamə CM/ResDH(99)555
2004-cü ildə aparılmış konstitusiya islahatı ilə dövlət təhlükəsizliyi məhkəmələri nəhayət ləğv edildi. Cinayət-Prosessual Məcəlləsinə və "Dövlət təhlükəsizliyi məhkəmələrinin ləğvi haqqında" Qanuna əlavə və dəyişikliklərlə bu məhkəmələrin yurisdiksiyası andlılar məhkəmələrinə verildi.	*TÜR / Sertkaya (77113/01)* *Yekun qərar 22/09/2006* Yekun qətnamə CM/ResDH(2008)83
Hərbi məhkəmələrin müstəqilliyini təmin edən struktur islahatları: "Ordu haqqında" 1955-ci il tarixli Qanuna 1997-ci ildə edilmiş dəyişikliklərə əsasən, hərbi məhkəmələrə hakim-vəkil (hüquqi biliklərə malik mülki şəxs) üzv kimi daxil edilməlidir və onun qanunvericiliyə dair verdiyi məsləhətlər məhkəmə üçün məcburi qüvvəyə malikdir və o, hökmlə bağlı səs hüququna malikdir (amma bu, cəza təyininə aid deyil). Hökmdən mülki məhkəmələrə apellyasiya şikayəti vermək hüququna hərbi apellyasiya məhkəməsinə şikayət vermək hüququ əlavə edilmişdir. Beləliklə, yekun qərar bundan sonra həmişə məhkəmə orqanı tərəfindən veriləcək.	*BK / Findlay (22107/93)* *Yekun qərar 25/02/1997* Yekun qətnamə CM/ResDH(98)11

Donanmada intizam haqqında 1957-ci il tarixli Qanunda düzəlişlərə dair 2004-cü il tarixli Əmrə əsasən Kral donanması məhkəmələrində hakim-vəkillərin (mülki şəxslərin) təyin edilməsi vəzifəsi donanmanın (mülki) Hakim-vəkilinə həvalə olundu. Hərbi dəniz məhkəmələrinin sıravi üzvləri üçün hazırlanmış informasiya xülasələrində 2002 və 2004-cü illərdə dəyişiklik edilərək müvafiq təlimatlar oraya daxil edildi ki, bu da onların müstəqil və kənar təzyiqlərdən azad fəaliyyət göstərməsi zərurətindən və ordu və Kral hava qüvvələrinin təlimatları ilə mümkün qədər maksimum uyğunluğu təmin etmək zərurətindən irəli gəlirdi. 2009-cu ildə qüvvəyə minmiş "Silahlı qüvvələr haqqında" yeni Qanunla silahlı qüvvələrin hər üç qolu (ordu, donanma, hava qüvvələri) üçün eyni vaxtda birdən artıq yerdə iclaslarını keçirə bilən vahid, daimi Hərbi Məhkəmə yaradıldı. Bu məhkəmə müxtəlif məhkəmə prosesləri üçün müxtəlif hakim-vəkillərdən və xidməti personaldan ibarət ola bilər.	***BK / Grieves (57067/00)*** ***Yekun qəərar 16/12/2003*** **Yekun qətnamə CM/ResDH(2011)290**
Şərti Azadetmə Şurasının ömürlük azadlıqdan məhkum edilmiş məhbusların mütləq qaydada vaxtından əvvəl azadlığa buraxılması ilə bağlı tam səlahiyyəti: 2003-cü ildə "Cinayət mühakimə icraatı haqqında" Qanuna edilən dəyişikliklər nəticəsində Şərti Azadetmə Şurası ömürlük azadlıqdan məhkum edilmiş bütün məhbusların mütləq qaydada vaxtından əvvəl azadlığa buraxılması ilə bağlı qərar vermək səlahiyyətinə malik oldu və Dövlət Katibi artıq onun qərarlarından kənara çıxa bilməz. "İnsan hüquqları haqqında" 1998-ci il tarixli Qanunda nəzərdə tutulmuş dövlət orqanı olan Şərti Azadetmə Şurası indi Konvensiya ilə qorunan hüquqa zidd hərəkət etdiyi təqdirdə onun bu hərəkəti qeyri-qanuni sayılacaq.	***BK / Stafford (46295/99)*** ***Yekun qərar 28/05/2002*** **Yekun qətnamə CM/ResDH(2011)179**
Səlahiyyətlər bölgüsünü təmin edən hərtərəfli məhkəmə islahatı: Hakimlərin təyinatı və vəzifədən azad edilməsi prosesindən siyasi qurumların (prezident və parlamentin) kənarlaşdırılması yolu ilə məhkəmə sisteminin struktur müstəqilliyinin təmin edilməsi üçün tədbirlər görülmüşdür.	***UKR / Oleksandr Volkov (21722/11)*** ***Yekun qərar 27/05/2013*** **Fəaliyyət planı** İcra vəziyyəti: icra başa çatmayıb

1.2. Tərəflərə münasibətdə müstəqillik

Sosial Sığorta üzrə Regional Apellyasiya Komissiyasının müstəqilliyi: Regional Apellyasiya Komissiyasının tərkibini tənzimləyən "Sosial sığorta haqqında" Ümumi Qanunun müddəasına 2000-ci ildə dəyişiklik edildi. Komissiyanın sədri bundan sonra Federal ədliyyə naziri tərəfindən təyin olunan hakim olacaq və namizədliyi irəli sürüldüyü zaman o, əmək və sosial məsələlərə baxan məhkəmənin üzvü olmalıdır. Komissiya ikisinin namizədliyi Həkimlər Palatası və ikisinin namizədliyi Ümumi Sosial Sığorta Assosiasiyası tərəfindən təklif edilən daha dörd üzvdən ibarətdir.	***AVS / Hortolomei (17291/90)*** ***Yekun qərar 16/04/1998*** **Yekun qətnamə ResDH(2004)73**
Daşınmaz Əmlakla Əməliyyatlar üzrə Regional Orqanın müstəqilliyi: Bu orqan, digər personalla yanaşı, əyalət hökuməti idarəsinin özünün tərəf qismində iştirak etdiyi işlərdə biri məruzəçi kimi çıxış edən əyalət hökuməti idarəsinin üç dövlət qulluqçusundan ibarətdir. Tirol regional hökuməti 1984-cü ildə regional administrasiyanın təşkili planında dəyişiklik etdi. Bundan sonra Regional Orqanın məruzəçisinin dövlət qulluqçusu kimi mənsub olduğu şöbə prosesdə əyalət hökuməti idarəsini təmsil edən "əmlak əməliyyatları nəzarətçisinin" rəhbərlik etdiyi İdarədən ayrılıb. Beləliklə, Regional Orqanın məruzəçisi artıq həmin nəzarətçinin tabeliyində deyil.	***AVS / Sramek (8790/79)*** ***Yekun qərar 22/10/1984*** **Yekun qətnamə CM/ResDH(85)6**
Deputatlar Palatasının Məhkəmə Bölməsinin müstəqilliyi: 2009-cu ildə Deputatlar Palatasının əməkdaşları ilə onun aparatının işçiləri arasında inzibati mübahisələrə dair son instansiya qismində qərar vermək səlahiyyətinə malik olan Məhkəmə Bölməsinin tərkibində Assambleya	***İTA / Savino (17214/05)*** ***Yekun qərar 28/07/2009***

və Deputatlar Palatasının sədri tərəfindən dəyişiklik edildi. İndi Məhkəmə Bölməsi Deputatlar Palatasının yalnız administrasiya ilə konkret əlaqəsi olmayan üzvlərindən təşkil olunur.	Fəaliyyət hesabatı Yekun qətnamə CM/ResDH(2020)229
Mənzil mübahisələrində maraqlar toqquşması zamanı qeyri-hakim köməkçilərin prosesdən kənarlaşdırılması: "İcarə qiymətlərinə yenidən baxılması üzrə şuralar və Kirayə qiymətlərinə yenidən baxılması üzrə şuralar" haqqında 1973-cü il tarixli Qanunda və "Mənzil və kirayə işləri üzrə məhkəmə haqqında" 1974-cü il tarixli Qanunda 1991-ci ildə dəyişikliklər edildi, dəyişikliklərdə nəzərdə tutulurdu ki, Kirayə qiymətlərinə yenidən baxılması üzrə şuraların və Mənzil və kirayə işləri üzrə məhkəmənin tərkibində fəaliyyət göstərməsi üçün maraqlı assosiasiyalar tərəfindən təyin edilən və onlarla sıx əlaqədə olan qeyri-hakim köməkçilər maraqlar toqquşması baş verdikdə adi hakimlərlə əvəz edilməlidir.	***İSVR / Langborger (11179/84)*** *Yekun qərar 22/06/1989* Yekun qətnamə CM/ResDH(91)25
Mənzil müavinətləri ilə bağlı mübahisələrə məhkəmələr tərəfindən baxılması: Mübahisələndirilən qərarı qəbul etmiş yerli hakimiyyət orqanından seçilən beş üzvün daxil olduğu Mənzil müavinətləri məsələlərinə yenidən baxılması üzrə şura "Alimentlər, pensiyalar və sosial təminat haqqında" 2000-ci il tarixli Qanuna əsasən yaradılmış məhkəmələrlə əvəz edilmişdir. Bu məhkəmələr yerli hakimiyyət orqanlarından tamamilə müstəqildir və mənzil müavinətləri ilə bağlı mübahisələrə aid bütün faktları araşdıra bilər.	***BK / Tsfayo (60860/00)*** *Yekun qərar 14/11/2006* Yekun qətnamə CM/ResDH(2010)75

1.3. Məhkəmələrin daxili müstəqilliyi

Cinayət işlərində kassasiya instansiyası məhkəməsi qismində Ali Məhkəmənin müstəqilliyinin gücləndirilmiş təminatları: Ali Məhkəmənin təzyiqlərə məruz qalması ilə bağlı obyektiv əsası olan şübhələr problemini həll etmək üçün 2002-ci ildə Cinayət Prosessual Məcəlləsinə apellyasiya qərarlarının ləğv olunması və birinci instansiya qərarının bərpa edilməsi üçün Ali Məhkəmə hakimlərinin və/və ya kassasiya şikayətləri üzrə şöbənin sədrlərinin kassasiya qaydasında təqdimat verməsini qadağan edən müddəalar daxil edildi.	***LİT / Daktaras (42095/98)*** *Yekun qərar 17/01/2001* Yekun qətnamə CM/ResDH(2004)43
Məhkəmə karyerası sistemində islahatlar: 2016-cı il konstitusiya islahatı və onun həyata keçirilməsinə yönələn qanunvericiliyin qəbulu Ukraynada məhkəmə sistemi üçün, o cümlədən hakimlərin vəzifəyə seçilməsi, təyinatı və intizam icraatı üçün yeni hüquqi baza yaratdı. Buraya səlahiyyətli orqan olan Ali Ədliyyə Şurasının tərkibi və fəaliyyəti ilə bağlı yeni qaydalar daxil idi. Məhkəmə sədrlərinin rolunun azalması hakimlərin daxili müstəqilliyinə əlavə təminat verdi. *Oleksandr Volkov işində 2015-ci ildə Ali Məhkəmə parlamentin qərarından sonra ərizəçini Ali Məhkəmənin hakimi vəzifəsinə bərpa etdi.* *Salov işində ərizəçinin əleyhinə çıxarılmış məhkəmə qərarları Ali Məhkəmə tərəfindən ləğv edildi və icraata xitam verildi.* *Sovtransavto Holding işində mübahisəli məhkəmə qərarı ləğv edildi və iş yenidən baxılmaq üçün göndərildi. 2005-ci ildə ərizəçi şirkətin iddiası qismən təmin edildi.*	***UKR / Oleksandr Volkov (21722/11)*** *Yekun qərar 27/05/2013* Fəaliyyət planı İcra vəziyyəti: icra başa çatmayıb ***UKR / Agrokompleks (23465/03)*** *Yekun qərar 08/03/2012* Fəaliyyət hesabatı İcra vəziyyəti: icra başa çatmayıb ***UKR / Salov (65518/01)*** *Yekun qərar 06/12/2005*

Fəaliyyət planı

Yekun qətnamə
CM/ResDH(2018)232

UKR / Sovtransavto Holding
(48553/99)

Yekun qərar
06/11/2002

Fəaliyyət hesabatı

Yekun qətnamə
CM/ResDH(2019)243

2. MƏHKƏMƏLƏRİN QƏRƏZSİZLİYİ

Qərəzsizlik tərəfkeşliyin və ya qərəzliliyin olmaması deməkdir. Məhkəmənin presedent hüququna əsasən, qərəzsizliyin mövcudluğu həm subyektiv test əsasında müəyyən edilməli, yəni konkret işdə hakimin şəxsi əqidəsi və davranışı, hər hansı şəxsi tərəfkeşlik və ya qərəzlilik mövqeyində olub-olmaması nəzərə alınmalı, həm də obyektiv test əsasında müəyyən edilməlidir, yəni məhkəmənin özünün, o cümlədən onun tərkibinin qərəzsizliyi ilə bağlı hər hansı legitim şübhəni istisna etmək üçün kifayət qədər təminatların mövcud olub-olmadığı müəyyən edilməlidir. Müvafiq işlərin əksəriyyətində Məhkəmə əsas diqqəti obyektiv testə yönəldir. Bununla belə, o qeyd etmişdir ki, subyektiv və obyektiv qərəzsizlik arasında hər hansı dəqiq bölgü yoxdur, belə ki, hakimin davranışı nəinki kənar müşahidəçinin nöqteyi-nəzərindən onun qərəzsizliyinə dair obyektiv şübhələrə səbəb ola bilər (obyektiv test), həm də konkret işdə onun şəxsi əqidəsi ilə bağlı suallar doğura bilər (subyektiv test).

2.1 Məhkəmələrin obyektiv qərəzsizliyi

2.2 İş üzrə məsləhət və məhkəmə funksiyalarının həyata keçirilməsi

Dövlət Şurası hakimlərinin məşvərət və məhkəmə funksiyalarının ayrılması: 1995-ci ildə "Dövlət Şurasının təşkili haqqında" 1961-ci il tarixli Qanuna edilmiş dəyişiklik Dövlət Şurasının Məhkəmə Komitəsinin üzvlərinin Şuranın əvvəlki müzakirələrində nəzərdən keçirilmiş qanunların və ya fərmanların tətbiqinə aidiyyəti olan işlərə baxılmasında iştirak etməməsini nəzərdə tutur.	***LÜK / Procola (14570/89)*** ***Yekun qərar 28/09/1995*** **Yekun qətnamə CM/DH(96)19**

2.1.2. İş üzrə məhkəmə və məhkəmədənkənar funksiyaların həyata keçirilməsi

İnzibati məhkəmədə üzvlüyün digər peşə fəaliyyətləri və üçüncü şəxslərin professional təmsilçiliyi ilə uyğunsuzluğu: Kanton inzibati məhkəməsinin yarımştat əsasda fəaliyyət göstərən əvəzedici hakimlərindən ikisinin eyni məhkəmədə öncə ərizəçiyə qarşı aparılmış icraatda vəkil qismində iştirak etmələri səbəbindən həmin məhkəmənin qərəzsiz olmaması ilə bağlı Məhkəmənin gəldiyi qənaətə cavab olaraq, 1997-ci ildə Sürix kantonunun "İnzibati ədalət mühakiməsi" haqqında Qanununda dəyişiklik edildi, həmin dəyişiklikdə nəzərdə tutulurdu ki, inzibati məhkəmədə tam ştatlı üzvlük hər hansı digər tam ştatlı peşə fəaliyyətinin və ya hər hansı məhkəmə və ya inzibati orqanlar qarşısında üçüncü tərəflərin professional təmsilçiliyinin həyata keçirilməsi ilə bir araya sığmır. *2001-ci ildə Federal Məhkəmə ərizəçinin işə yenidən baxılması barədə vəsatətini təmin etdi, onun mübahisələndirilən qərardan şikayətini qəbul etdi və işi İHAK-ın 6-cı maddəsinin 1-ci bəndinin və milli qanunvericiliyin tələblərinə cavab verən tərkibdə təşkil olunmuş inzibati məhkəməyə göndərdi.*	***İSVR / Wettstein (33958/96)*** ***Yekun qərar 21/03/2001*** **Yekun qətnamə CM/ResDH(2009)14**
Gernsi Kral Məhkəməsində sədrlik edən hakimin qərəzsizliyinin təmin edilməsi: 2001-ci il tarixli Praktik təlimata əsasən, Gernsi Kral Məhkəməsində inzibati icraata sədrlik edən hakimin sədrlikdən kənarlaşdırılması ilə bağlı xüsusi prosedur işlənib hazırlanmışdır: Dinləmənin əvvəlində bütün tərəflərin hüquq məsləhətçilərindən sədrlik edən hakimə hər hansı etirazlarının olub-olmadığını və bu etirazın əsaslarını bildirmələri tələb olunur. Hüquq məsləhətçilərinə qənaətbəxş məlumat əldə etmək imkanı yaratmaq üçün sədrlik edən hakim dinləmədən əvvəl onlara ölkədaxili məhkəmə tərəfindən baxılacaq və ya qərar veriləcək məsələlərə aid işlərdə öncə iştirak edib-etmədiyi barədə yazılı məlumat verir.	***BK / McGonnell (28488/95)*** ***Yekun qərar 08/02/2000*** **Yekun qətnamə DH(2001)120**

2.1.3. İş üzrə müxtəlif məhkəmə funksiyalarının həyata keçirilməsi

İsin istintaqını aparmış hakimlərin iş üzrə sonrakı məhkəmə icraatlarından kənarlaşdırılması: 1992-ci ildə Federal Ədliyyə Nazirliyi Apellyasiya Məhkəmələrinin sədrlərinə və Baş prokurorlara sirkulyar ünvanlayaraq bildirdi ki, hakimlərin prosesdən mümkün kənarlaşdırılması məsələsinə məhkəmə iclasının tarixi təyin edilənə qədər aydınlıq gətirilməlidir. Yalnız müstəsna hallarda, xüsusən də icraatın gecikdirilməsi ərizəçinin mənafeyinə uyğun olmazsa, minimum prosessual təminatlara riayət etmək şərti ilə təqsirləndirilən şəxsin hakimin prosesdən kənarlaşdırılması üçün vəsatət vermək hüququndan imtina etməsi nəzərdə tutula bilər (təqsirləndirilən şəxsin imtinasına onun qanuni nümayəndəsinin iştirakı ilə müstəqil və qərəzsiz hakim tərəfindən baxılması şərti ilə).	***AVS / Pfeifer və Plankl (10802/84)*** ***Yekun qərar 25/02/1992*** **Yekun qətnamə CM/ResDH(92)64**
İsin istintaqını aparmış hakimin birinci instansiya məhkəməsindəki icraatdan kənarlaşdırılması: 1985-ci ildə Kassasiya Məhkəməsinin presedent hüququnda dəyişiklik edilməsindən sonra isin istintaqını aparmış hakimin eyni iş üzrə birinci instansiya məhkəməsindəki icraata sədrlik etməsinə və ya həmin icraatda hakim kimi iştirak etməsinə icazə verilmir. Məhkəmə Məcəlləsində apellyasiya və andlılar məhkəmələrindəki icraatlar üçün eyni qayda öncə artıq nəzərdə tutulmuşdu.	***BEL / De Cubber (9186/80)*** ***Yekun qərar 26/10/1984*** **Yekun qətnamə CM/ResDH(88)20**
Məhkəməyəqədər qərarların qəbulunda iştirak edən hakimlərin icraatdan kənarlaşdırılması: 1990-cı ildə "Ədalət mühakiməsinin həyata keçirilməsi haqqında" Qanuna dəyişiklik edilərək həbs qətimkan tədbiri və ya müəyyən digər istintaq hərəkətləri ilə bağlı məhkəməyəqədər qərarları qəbul etmiş hakim eyni iş üzrə birinci instansiya və ya apellyasiya icraatında hakim kimi iştirak etmək hüququndan məhrum edildi. Yalnız xüsusi sadələşdirilmiş qaydada baxılan elə işlər istisna təşkil edir ki, həmin işlərdə təqsirləndirilən şəxs törətdiyi cinayəti etiraf edib və təqsirləndirilən şəxsin təqsirinin sübutu ilə bağlı qərarın qəbulu tələb olunmur. Bundan başqa, hakimlərin qərəzsizliyinə dair ümumi müddəa qəbul edilmişdir ki, həmin müddəaya əsasən, hər hansı digər hallar şəxsin qərəzsizliyini şübhə altına almağa əsas verdikdə, belə şəxs işdə hakim qismində çıxış edə bilməz.	***DAN / Hauschildt (10486/83)*** ***Yekun qərar 24/05/1989*** **Yekun qətnamə CM/ResDH(91)9**
Bank nəzarəti orqanlarının fərqləndirici funksiyalarının tətbiqi: 2010-cu ildə "Valyuta və maliyyə məcəlləsi"ndə dəyişikliklər edilməsi haqqında əmrlə bank və sığorta fəaliyyəti üzrə lisenziyalaşdırma və nəzarəti həyata keçirən orqanlar birləşdirilərək vahid orqanın – Prudensial Nəzarət Orqanının tərkibinə daxil edildi. Prudensial Nəzarət Orqanı 16 üzvdən ibarət Kollegiyadan və beş üzvdən ibarət Sanksiyalar Komitəsindən ibarətdir. Sanksiyalar Komitəsinin üzvünün funksiyaları ilə Kollegiya üzvünün funksiyaları fərqlidir. Kollegiya yoxlamalar zamanı çatışmazlıqlar aşkar edildikdən sonra təkbaşına sanksiya tətbiqi prosesinə başlamaq səlahiyyətinə malikdir. Sanksiyalar Komitəsi intizam sanksiyası tətbiq etmək üzrə müstəsna səlahiyyətə malikdir və çəkişmə prinsipinə əməl olunmasını təmin edir.	***FRA / Dubus S.A (5242/04)*** ***Yekun qərar 11/09/2009*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2011)102**
Hökumət Komissarının məhkəmə proseslərində rolunun məhdudlaşdırılması: 2006-cı ildə İnzibati Ədliyyə Məcəlləsinə Hökumət Komissarının Dövlət Şurasında, inzibati işlər üzrə birinci instansiya və apellyasiya məhkəmələrində icraat zamanı məşvərətlərdə iştirakını qadağan edən dəyişiklik edildi. Dövlət Şurasındakı icraatlarda tərəflər Hökumət Komissarının məşvərətlərdən kənarlaşdırılması üçün vəsatət vermək imkanına malik olacaqlar. Çağırış vərəqəsində bu hüquq barədə tərəflərə məlumat verilir. Belə bir vəsatət təqdim edilmədikdə, Hökumət Komissarı bütün tərəflərin prosessual hüquqlarının təmin edilməsi üçün dinləmələrdə iştirak edəcək.	***FRA / Kress (39594/98)*** ***Yekun qərar 07/06/2001*** **Yekun qətnamə CM/ResDH(2007)44**

Hakimlər barəsində intizam icraatında məhkəmələrin qərəzsizliyinin təmin edilməsi: "Ümumi məhkəmələr haqqında" Orqanik Qanuna 2018-ci ildə edilmiş dəyişikliyə əsasən, məhkəmənin sədri artıq öz məhkəməsinin hakimlərinə qarşı intizam icraatı başlamaq səlahiyyətinə malik deyil. Bu hüquq ilkin araşdırma aparan və gəldiyi nəticələri Ali Ədliyyə Şurasına təqdim edən, daha sonra üçdə iki səs çoxluğu ilə intizam icraatının başlanılıb-başlanılmaması barədə qərar verə bilən yeni təsisata – Müstəqil Müfəttişə həvalə edilir. İntizam işinə mahiyyəti üzrə ümumi məhkəmələrin üç hakimindən və ali təhsil müəssisələrində çalışan professor və elmi işçilərdən, Vəkillər Assosiasiyasının üzvlərindən və (və ya) qeyri-kommersiya hüquqi şəxslər tərəfindən namizədliyi irəli sürülən şəxslərdən seçilmiş iki qeyri-hakim köməkçidən ibarət Ümumi Məhkəmə Hakimlərinin İntizam Kollegiyası tərəfindən baxılır.	***GÜR / Sturua (45729/05)*** ***Yekun qərar 27/04/2017*** **Fəaliyyət hesabatı** İcra vəziyyəti: icra başa çatmayıb
Hakimlərin eyni iş üzrə bir neçə müxtəlif səviyyələrdə icraatdan kənarlaşdırılması: 1996-cı ildə Konstitusiya Məhkəməsi Cinayət Prosessual Məcəlləsini (CPM) iki cəhətdən konstitusiyaya zidd elan etdi. Birincisi, eyni hakimə birinci instansiyadakı icraatda iştirak etmək və təqsirləndirilən şəxsin təqsiri məsələsi ilə bağlı apellyasiya şikayəti üzrə icraatda iştirak imkanı verildiyinə görə. İkincisi, qabaqlayıcı tədbirlərlə bağlı qərarların qəbul edilməsində iştirak etmiş hakimlərə işin mahiyyəti üzrə qərarların qəbulunda iştirak etmək imkanı verildiyinə görə. Daha sonra, 1996-cı il tarixli başqa bir qərarında Konstitusiya Məhkəməsi CPM-in digər bir müddəasını konstitusiyaya zidd elan etdi, belə ki, həmin müddəa təqsirləndirilən şəxsin cinayət məsuliyyəti ilə bağlı əvvəlki instansiyada qərar çıxarmış hakimin həmin təqsirləndirilən şəxsə qarşı sonrakı instansiyadakı icraatda iştirakını istisna etmirdi.	***İTA / Ferrantelli və Santangelo (19874/92)*** ***Yekun qərar 07/08/1996*** **Yekun qətnamə CM/Res DH(97)502** ***İTA / Cianetti (55634/00)*** ***Yekun qərar 10/11/2004*** **Yekun qətnamə CM/ResDH(2010)213**
Eyni iş üzrə aşağı instansiya məhkəmələrinin icraatında iştirak etmiş Ali Məhkəmə hakimlərinin bu məhkəmədəki icraatda iştirakının istisna edilməsi: 2013-cü ildə Ali Məhkəmənin Mülki İşlər Şöbəsi 2005-ci il tarixli Mülki Prosessual Məcəllənin tətbiqi zamanı Avropa Məhkəməsinin presedent hüququnu nəzərə almağı tələb edən məcburi qüvvəyə malik rəy qəbul etdi, həmin rəyə əsasən, hakim və ya qeyri-hakim köməkçi, hər hansı hallar onların qərəzsizliyinə şübhə yaratdıqda, məhkəmə vəzifəsini yerinə yetirməli olmayan şəxs hesab edilirlər. Bu rəy xüsusən Ali Məhkəmənin hakimi əvvəllər eyni iş üzrə aşağı instansiya məhkəmələrindəki icraatda iştirak etdiyi təqdirdə tətbiq edilir.	***MAK / Bajaldziev (4650/06)*** ***Yekun qərar 25/01/2012*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2015)189**
Hakimlərin hüquqa zidd davranışı ilə bağlı Dövlət Ədliyyə Şurasında aparılan icraatlarda qərəzsizliyin təmin edilməsi: 2018-ci ildə "Dövlət Ədliyyə Şurası haqqında" Qanuna və "Məhkəmələr haqqında" Qanuna dəyişiklik edildi və indi intizam icraatına başlamaq təşəbbüsünü irəli sürmüş Dövlət Ədliyyə Şurasının üzvlərinin həmin icraat çərçivəsində qərarların qəbulunda iştirakı istisna edilir. Həmçinin yuxarıda qeyd edilən qanunlar Təhqiqat Komissiyası tərəfindən araşdırma aparılması mərhələsini Təhqiqat Komissiyasının heç bir üzvünün iştirak edə bilməyəcəyi qərar qəbul etmə mərhələsindən ayırmış oldu.	***MAK / Mitrinovski (6899/12)*** ***Yekun qərar 30/07/2015*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2019)300**
Ali Məhkəmə hakimlərinin icraatdan kənarlaşdırılması ilə bağlı qaydalara aydınlıq gətirilməsi: Ali Məhkəmənin hakiminin eyni iş üzrə verdiyi hüquqi şərhin və ya tətbiq etdiyi maddi hüquq normalarının təsdiq və ya rədd edilməsi barədə qərarın qəbul ediləcəyi icraatda iştirak edə bilməsi ehtimalının qarşısını almaq üçün Konstitusiya Məhkəməsi 2004-cü il tarixli qərarında aydınlıq gətirdi ki, hakimlərin belə icraatdan kənarlaşdırılması haqqında müddəadakı "aşağı instansiya" termini bütün aşağı məhkəmə səviyyələrini əhatə etməlidir.	***POL / Toziczka (29995/08)*** ***Yekun qərar 24/10/2012*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2014)146**

Məhkəməyə hörmətsizliklə bağlı icraatlarda məhkəmələrin qərəzsizliyi: 2016-cı ildə Konstitusiya Məhkəməsi öz presedent hüququnda dəyişiklik edərək bildirdi ki, məhkəməyə hörmətsizliklə bağlı icraat çərçivəsində həmin iddia edilən hörmətsizliyin yönəldiyi hakimin qərar çıxarması və sanksiya tətbiq etməsi icraatın qərəzsizliyini pozur. 2017-ci ildə Mülki Prosessual Qanuna belə bir dəyişiklik edildi ki, məhkəməyə hörmətsizlik etdiyi iddia edilən şəxsə sanksiya tətbiq edilməsi barədə hakimin təqdimatına baxılması başqa hakimə həvalə edilməlidir.	***SVN / Pecnik Alenka (44901/05)*** ***Yekun qərar 27/12/2012*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2018)148**
Eyni iş üzrə aşağı instansiya məhkəməsində iştirak etmiş Konstitusiya Məhkəməsi hakimlərinin icraatdan kənarlaşdırılması: 2007-ci ildə Konstitusiya Məhkəməsinin aşağı instansiya məhkəməsindəki icraatda iştirak etmiş hakimin daxil olduğu kollegiya tərəfindən qəbul edilmiş qərarla bağlı icraatının qərəzsizlikdən məhrum ola biləcəyini aradan qaldırmaq üçün Konstitusiya Məhkəməsi öz presedent hüququnda dəyişiklik etdi. O, müvafiq icraatın predmeti üzrə əvvəllər ekspert rəyi vermiş hakimləri və ya aşağı instansiya məhkəmələrində eyni iş üzrə qərarların qəbulunda iştirak etmiş hakimləri həmin iş üzrə Konstitusiya Məhkəməsindəki icraatda iştirakdan kənarlaşdırdı. Tərəflər "Konstitusiya Məhkəməsinin prosedur qaydaları"nda nəzərdə tutulam qaydada Konstitusiya Məhkəməsi hakiminin icraatdan kənarlaşdırılması ilə bağlı vəsatət qaldıra bilərlər.	***SVN / Svarc and Kavnic (75617/01)*** ***Yekun qərar 08/05/2007*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2018)213**
Ali İnzibati Məhkəmənin ümumi yığıncağının qərəzsizliyi: 2012-ci ildə "Ali İnzibati Məhkəmə (AİM) haqqında" Qanununa belə bir dəyişiklik edildi ki, AİM-in ümumi yığıncağı yalnız bu quruma ünvanlanmış müraciətlərə baxan seçilmiş daimi üzvlərdən ibarət olmalıdır. İstisna olaraq, ümumi yığıncaq üzvlərinin AİM-in palatalarındakı icraatda iştirakına yalnız iş yükünün həddən artıq çox olması ilə bağlı zəruri hallarda icazə verilir. *Barəsində şikayət edilən icraat bərpa edildi və ərizəçinin xeyrinə qərar çıxarıldı.*	***TÜR / Fazli Aslaner (36073/04)*** ***Yekun qərar 07/07/2014*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2017)320**

2.1.4. Maraqlar toqquşması daxil olmaqla şəxsi xarakterli situasiyalar

Məhkəmə sisteminin qərəzsizliyini və ədalət mühakiməsinin səmərəliliyini gücləndirmək üçün islahatlar: Bu iş məhkəmə prosesində iştirak edən vəkillə sədrlik edən hakim arasında ailə əlaqəsinə aid idi və bu, əmək mübahisəsi üzrə icraatda qərəzlilik təəssüratı yaratmışdı. 2015-ci ilin konstitusiya dəyişikliklərinə əsaslanan ümumi məhkəmə islahatları çərçivəsində hakimlərin rolunu gücləndirmək və qərəzsizliyini təmin etmək məqsədilə 2018-ci ildə hakimlərin statusunu yüksəldən, namizədlik tələblərini müəyyən edən, seçim və təyinat prosedurunu təkmilləşdirən Məhkəmə Məcəlləsi qəbul edildi. 2018-ci ildə Baş Hakimlər Şurası tərəfindən "Etik davranış qaydaları"nda dəyişiklik edilərək hakimlərin vəzifə səlahiyyətlərinə uyğun gəlməyən davranışların daha ətraflı təsviri verildi, qərəzsizlik prinsipinə xüsusi diqqət yetirildi. "2019-2023-cü illər üçün məhkəmə-hüquq islahatları üzrə strategiya" həyata keçirildi. Son presedent hüququnda Kassasiya Məhkəməsi bu qərara istinad etdi və obyektiv qərəzsizlik testini tətbiq etdi.	***ERM / Ghulyan (35443/13)*** ***Yekun qərar 24/01/2019*** **Yekun qətnamə CM/ResDH(2021)138**

Konstitusiya Məhkəməsinin və Ali Məhkəmənin presedent hüququnda məhkəmələrin qərəzsizliyini təmin edən dəyişiklikləri: Avropa Məhkəməsinin qərarına cavab olaraq, Konstitusiya Məhkəməsi və Ali Məhkəmə məhkəmələrin qərəzsizliyini qiymətləndirərkən bundan sonra Avropa Məhkəməsinin subyektiv və obyektiv test meyarlarını tətbiq etməklə öz presedent hüquqlarında dəyişiklik etdilər. Hazırkı işdə apellyasiya instansiyası məhkəməsinin qərəzsizliyinə dair şübhə ondan irəli gəlirdi ki, sədrlik edən hakimin oğlu ərizəçinin işində qarşı tərəfi təmsil edən hüquq firmasında təcrübəçi olmuşdu. Həmçinin 2013-cü ildə Ədliyyə Nazirliyi ölkədaxili icraatlar barədə məlumatlara ictimaiyyətin çıxışını təmin edən axtarış sistemini tətbiq etdi ki, bu da tərəflərin məhkəmənin qərəzsizliyinə xələl gəldiyini hesab etdiyi hallarda ölkədaxili məhkəmələrə şikayət etməsinə imkan verir.	***XOR / Ramljak (5856/13)*** ***Yekun qərar 13/11/2017*** **Fəaliyyət planı** İcra vəziyyəti: icra başa çatmayıb
Hakimlərin "həyat yoldaşı tərəfdən olan" qohumları ilə münasibətlərinə görə icraatdan kənarlaşdırılması üçün əsasların genişləndirilməsi: Bu iş onunla əlaqədar idi ki, ərizəçinin işində qarşı tərəf olan hüquq firmasının idarəçi ortağı ilə qohumluq əlaqəsinə görə apellyasiya instansiyası hakiminin qərəzsizliyinə dair obyektiv əsaslara söykənən şübhələr vardı. Bu problemi həll etmək üçün 2018-ci ildə "Məhkəmə praktikası məcəlləsi"nə "həyat yoldaşı tərəfdən olan" qohumlarla münasibətin hakimin icraatdan kənarlaşdırılması üçün əsas təşkil etməsini nəzərdə tutan dəyişiklik daxil edildi. Vəkillər hakim tərəfindən baxılan işdə iştirak etdikdə, hakimin ailə üzvləri olan vəkillərlə (o cümlədən təcrübəçi vəkillərlə) onlar arasında işəgötürən, işçi, ortaq münasibətləri və ya digər peşə münasibətləri varsa, sözügedən hakim əmək münasibətləri ilə bağlı müvafiq faktları tərəflərə açıqlamalıdır. Tərəflərdən biri hakimin icraatda iştirakına etiraz edərsə, hakim icraatda iştirakdan imtina edib-etməmək barədə qərar qəbul edir.	***KİP / Nicholas (63246/10)*** ***Yekun qərar 09/04/2018*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2018)359**
Etika Şurasının yaradılması: Bu işlər 2008-ci il bank böhranından sonra maliyyə cinayətləri ilə bağlı cinayət proseslərində hakimlərin obyektiv qərəzsizliyi ilə bağlı idi. 2017-ci il tarixli "Hakimlərin davranış kodeksi"nə uyğun olaraq, kodeksin prinsipləri barədə məlumatlılıq səviyyəsini artırmaq üçün Etika Şurası yaradıldı. Bundan başqa, Məhkəmə Administrasiyası 2018-ci il tarixli "Məhkəmə sistemi haqqında" Qanun əsasında hakimlər və ədliyyə orqanlarının digər əməkdaşları üçün davamlı tədris və təlimlər həyata keçirir. Bundan əlavə, "Məhkəmə sistemi haqqında" Qanun əsasında yaradılmış müstəqil orqan olan Hakimlərin Fəaliyyətləri üzrə Komitə hakimlərin çalışdığı ikinci iş yerlərinə və assosiasiya və şirkətlərdəki mülkiyyət paylarına nəzarət edir. O, hakimlərin davranış qaydalarını pozduğunun iddia edildiyi şikayətləri qəbul edə bilər. Şikayət kifayət qədər əsaslandırılıbsa, Komitə hakimin davranışının hüquqi standartlara uyğunluğu barədə əsaslandırılmış rəy verir.	***İSL/ Sigurđur Einarsson işlər qrupu (39757/15)*** ***Yekun qərar 04/09/2019*** **Yekun qətnamə CM/ResDH(2021)10**
Ali Məhkəmənin kollegiyalarının tərkibinə dair təkmilləşdirilmiş prosessual təminatlar: İş Ali Məhkəmənin seçim kollegiyasında iki hakimin qərəzsizliyinə dair obyektiv əsaslara söykənən şübhələrə aid idi. 2021-ci ildə konkret seçim kollegiyasının tərkibi haqqında məlumatların birbaşa Ali Məhkəmənin internet saytında dərc olunması məqsədi ilə "Ali Məhkəmənin mülki, cinayət və ya inzibati hüquqozmalara dair işlərdə hüquqi məsələlərlə bağlı şikayətlərə və işə yenidən baxılması barədə vəsatətlərə baxan inzibati, mülki və cinayət işləri üzrə seçim kollegiyalarının tərkibinə dair qaydalar"da dəyişiklik edildi. Bu məlumata malik olmaqla tərəflər hakimlərin mümkün qərəzsizliyi məsələsini qaldıra və ölkədaxili səviyyədə onların icraatdan kənarlaşdırılması üçün vəsatət verə bilərlər.	***LİT / Kaminskienė (48314/18)*** ***Yekun qərar 12/01/2021*** **Yekun qətnamə CM/ResDH(2021)289**
Hakimlərin qanuni nümayəndələrlə ailə münasibətlərinə görə icraatdan kənarlaşdırılması: İş Apellyasiya Məhkəməsinin sədrinin ərizəçinin işi üzrə qarşı tərəfin qanuni nümayəndələri ilə yaxın qohumluq əlaqələrinə görə qərəzsizliyinə dair obyektiv əsaslara söykənən şübhələrə aid idi. 2007-ci ildə işin faktları nəzərə alınaraq, Təşkilati və Mülki Prosessual Məcəlləyə dəyişiklik edildi, həmin dəyişikliyə əsasən, hakimin iştirak etdiyi icraatda qanuni nümayəndə onun oğlu, qızı, həyat yoldaşı, nəvə-nəticəsi və ya bacı-qardaşıdırsa, hakimin icraatdan kənarlaşdırılması üçün vəsatət verilməsinə və ya özü-özünü kənarlaşdırmasına icazə verilir.	***MAL / Micallef (17056/06)*** ***Yekun qərar 15/10/2009*** **Yekun qətnamə CM/ResDH(2011)232**

Konstitusiya Məhkəməsi hakimlərinin mümkün qərəzliliyinin araşdırılması üzrə genişləndirilmiş qaydalar: İş Konstitusiya Məhkəməsi hakimlərindən birinin qərəzsizliyinə dair obyektiv əsaslara söykənən şübhələrə aid idi. 2019-cu ildə "Konstitusiya Məhkəməsi haqqında" yeni Qanun qüvvəyə mindi, ona əsasən, hakimlər işin predmeti, iştirakçılar (tərəflər və ya onların nümayəndələri və maraqlı dövlət orqanı) və/və ya daha geniş kontekstdə "maraqlı şəxslər" ilə əlaqələri olduğu təqdirdə iş üzrə icraatdan kənarlaşdırılırlar.	***SVK / Petríková (42149/17)*** ***Yekun qərar 25/11/2021*** **Yekun qətnamə CM/ResDH(2022)417**

2.3 Məhkəmələrin subyektiv qərəzsizliyi

Hakimlərə qarşı intizam icraatı zamanı Milli Məhkəmə Şurası üzvlərinin ictimai açıqlamalarının məhdudlaşdırılması: Hazırkı işdə qərəzsizliyin olmaması Milli Məhkəmə Şurasının (MMŞ) sədrinin və iki üzvünün ərizəçi hakim barəsində aparılan intizam icraatı zamanı ona qarşı şərhlərini açıq şəkildə bildirmələrindən irəli gəlirdi. "Milli Məhkəmə Şurası haqqında" Qanuna 2011-ci ildə edilən dəyişikliyə əsasən, ictimai açıqlamalar yalnız MMŞ-nin sədri, MMŞ-nin üzvü və ya MMŞ-nin özü tərəfindən konkret məsələ ilə bağlı ictimaiyyətin təcili məlumatlandırılması zərurəti yarandıqda verilə bilər. Bununla belə, MMŞ-nin üzvlərinin qərar qüvvəyə minənə qədər intizam icraatı ilə bağlı şərh verməsinə, barəsində intizam icraatı davam edən hakim haqqında açıqlamalar verməsinə icazə verilmir.	***XOR / Olujic (22330/05)*** ***Yekun qərar 05/05/2009*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2011)194**
Məhkəməyə hörmətsizliklə bağlı icraatlarda islahat: 2009-cu ildə "Ədalət məhkəmələri haqqında" Qanuna ifadə azadlığı hüququnun müdafiəsi ilə məhkəmə hakimiyyətinin səlahiyyətləri arasında ədalətli balansın qorunmasının zəruriliyini önə çəkən dəyişiklik edildi. Dəyişiklikdə nəzərdə tutulur ki, məhkəməyə hörmətsizliklə bağlı işlərə məhkəməyə hörmətsizliyin baş verdiyini iddia edən məhkəmənin vəsatəti əsasında bu məqsəd üçün Ali Məhkəmənin sədri tərəfindən təyin edilən ayrıca məhkəmədə baxılmalıdır. Məhkəməyə hörmətsizliyin baş verdiyini iddia edən məhkəmə Ali Məhkəmənin sədrinə başqa məhkəmənin təyin edilməsi barədə vəsatət verməzdən əvvəl iddia edilən hüquqpozanı etiraz edilən davranışı və tətbiq edilən sanksiyalar barədə məlumatlandırmalıdır. Nəhayət, müvəkkilləri adından məhkəmədə iştirak edən vəkillərə artıq məhkəməyə hörmətsizliklə bağlı icraatın müddəaları şamil olunmur, çünki onların törətdikləri hər hansı hüquqa zidd davranış indi yalnız intizam pozuntusu təşkil edir və belə iş məhkəmə tərəfindən Vəkillərin İntizam Şurasına göndərilməlidir.	***KİP / Kyprianou (73797/01)*** ***Yekun qətnamə 15/12/2005*** **Fəaliyyət hesabatı** **Yekun qətnamə CM/ResDH(2015)47**

3. PROKURORLARIN MÜSTƏQİLLİYİ VƏ QƏRƏZSİZLİYİ

Avropa Məhkəməsi vurğulamışdır ki, demokratiya və qanunun aliliyi bir sənədlə tənzimlənə bilməz, bunun üçün institusional təminatlara ehtiyac duyulur. Prokurorların müstəqilliyi və qərəzsizliyi, məhkəmələrdə olduğu kimi, səlahiyyətdən sui-istifadə hallarına qarşı fundamental təminatdır və eyni zamanda Konvensiyanın bütün strukturu belə bir ümumi ehtimala əsaslanır ki, üzv dövlətlərdə dövlət orqanları vicdanla hərəkət edirlər. Analoji olaraq, Nazirlər Komitəsi qeyd etmişdir ki,[2] prokurorlar öz vəzifə və səlahiyyətlərini qanunçuluq, obyektivlik, ədalətlilik və qərəzsizlik prinsiplərinə tam uyğun şəkildə həyata keçirməlidirlər.

Prokurorların Kassasiya Məhkəməsinin məşvərətlərindən kənarlaşdırılması: Bu iş ədalətsiz məhkəmə araşdırmasına aiddir ki, bunun da səbəbləri, digər məsələlərlə yanaşı, ittihamçının Kassasiya Məhkəməsinin məşvərətlərində iştirakı ilə bağlıdır. Avropa Məhkəməsinin gəldiyi nəticələrə operativ reaksiya göstərərək, sonuncu müvəqqəti olaraq cinayət, mülki və intizam icraatında yeni təcrübə qəbul etdi ki, bu təcrübəyə əsasən, ərizəçilər artıq onun məşvərətlərində iştirak etməyən ittihamçının qeydlərinə cavab verə bilərlər. 2000-ci ildə Məhkəmə Məcəlləsinin Kassasiya Məhkəməsi ilə bağlı mübahisələndirilən müddəaları ləğv edildi. Həmçinin qərara alındı ki, prokurorluq mülki məhkəmə və tribunallardakı məşvərətlərdən kənarlaşdırılsın.	***BEL / Borgers (12005/86)*** ***Yekun qərar 30/10/1991*** **Yekun qətnamə CM/ResDH(2001)108**
Presedent hüququnda və qanunvericilikdə prokurorluğun müstəqilliyini artıran dəyişikliklər: Yalnız təzyiq göstərmək məqsədi ilə (hazırkı işdə digər ərizəçinin Avropa Məhkəməsinə şikayət ərizəsi verməsinin qarşısını almaq məqsədi ilə) şəxslərin tutulmasının/həbsə alınmasının və onlara qarşı cinayət işi açılmasının qarşısını almaq üçün prokurorluq xidmətində əsaslı islahat aparıldı. İslahat onun qanunvericilik və icra hakimiyyətlərindən müstəqilliyini artırdı və prokurorların intizam məsuliyyətini müəyyən etdi. Konstitusiya Məhkəməsinin 2013-cü il sentyabr tarixli qərarına əsasən, dövlət orqanlarının prokurordan konkret cinayət işləri üzrə məlumat tələb etməklə və ya konkret işlərin istintaqı üzrə ona sorğu verməklə və ya onu dindirməklə prokurorluğun işinə müdaxilə etməsi qadağandır. 2016-cı ildə Baş prokurorun seçilməsi üçün aydın meyar və prosedurları müəyyən edən, prokurorların siyasi partiyalarla əlaqəsini qadağan edən və cinayət prosesində insan hüquqlarına riayət olunmasını təmin edən "Prokurorluq haqqında" yeni Qanun qəbul edildi. Bundan başqa, o, prokurorların xidməti vəzifələrini yerinə yetirərkən yol verdiyi pozuntulara görə intizam sanksiyalarını nəzərdə tutur, onların qanunverici və ya icra hakimiyyəti ilə bağlı fəaliyyətlərdə iştirakını məhdudlaşdırır. *2007-ci ildə ərizəçi azad edildi və ona qarşı əsassız olaraq irəli sürülmüş bütün ittihamlar üzrə bəraət aldı.*	***MOL / Cebotari (35615/06)*** ***Yekun qərar 13/02/2008*** **Fəaliyyət planı** **Yekun qətnamə CM/ResDH(2016)147**
Prokurorluğun müstəqilliyi: 2016-cı il konstitusiya dəyişikliklərindən sonra prokurorluq xidməti məhkəmə sisteminin tərkib hissəsinə çevrildi. Yuxarıda qeyd olunan dəyişikliklər və "Prokurorluq haqqında" 2014-cü il tarixli Qanun nəhayət Ukraynanın Avropa Şurasına üzvlüyü ilə bağlı öhdəliklərinə uyğun olaraq ümumi nəzarət funksiyasının ləğv edilməsinə və prokurorluq xidmətində böyük islahatlara gətirib çıxardı. Bundan əlavə, yuxarıda qeyd edilən Qanun siyasi neytrallıq prinsipini, prokurorların xidməti vəzifələrini yerinə yetirərkən qanunsuz siyasi, maliyyə və ya digər təsirlərdən müdafiəsini, prokurorun fərdi muxtariyyətinə təminat verilməsini və prokurorluğun özünüidarə sisteminin tətbiqini nəzərdə tuturdu. O həmçinin intizam icraatları və karyera ilə bağlı məsələlər üçün baza təşkil etdi. 2017-ci il tarixli "Prokurorların peşə etikası və peşə davranışı kodeksi" siyasi neytrallıq prinsipini daha da möhkəmləndirdi və prokurorların peşə davranışını tənzimləyən standartları müəyyən etdi.	***UKR / Lutsenko (6492/11)*** ***Yekun qərar 19/11/2012*** **Fəaliyyət hesabatı** İcra vəziyyəti: icra başa çatmayıb

[2] Bax: Cinayət mühakimə icraatı sistemində prokurorluğun rolu haqqında Rec(2000)19 saylı Tövsiyə; və **Cinayət mühakimə icraatı sistemindən kənarda prokurorların rolu haqqında CM/Rec(2012)11 saylı Tövsiyə**.

Lutsenko işində Prezident 2013-cü ildə ərizəçini əfv etdi və o, sonradan azad edildi. Daha sonra 2014-cü ildə ölkədaxili məhkəmə ərizəçi barəsindəki ittiham hökmlərini ləğv etdi. *Timoşenko işində ərizəçi 2014-cü ildə həbsdən azad edildi və tam bəraət aldı.*	***UKR / Tymoshenko (49872/11)*** ***Yekun qərar 30/07/2013*** **Fəaliyyət hesabatı** İcra vəziyyəti: icra başa çatmayıb

İŞLƏRİN SİYAHISI

ERM / Ghulyan (35443/13).....11
AVS / Hortolomei (17291/90) 5
AVS / Pfeifer və Plankl (10802/84)..... 9
AVS / Sramek (8790/79) 5
BEL / Borgers (12005/86).....14
BEL / De Cubber (9186/80) 9
XOR / Olujic (22330/05).....13
XOR / Ramljak (5856/13).....12
KİP / Kyprianou (73797/01).....13
KİP / Nicholas (63246/10).....12
DAN / Hauschildt (10486/83)..... 9
FRA / Beaumartin (15287/89)..... 3
FRA / Dubus S.A (5242/04) 9
FRA / Kress (39594/98)..... 9
GÜR / Sturua (45729/05).....10
İSL / Sigurður Einarsson işlər qrupu (39757/15).....12
İTA / Cianetti (55634/00).....10
İTA / Ferrantelli və Santangelo (19874/92).....10
İTA / Savino (17214/05)..... 5
LİT / Daktaras (42095/98) 6
LİT / Kaminskienė (48314/18).....12
LÜK / Procola (14570/89) 8
MOL / Cebotari (35615/06).....14
MAK / Bajaldziev (4650/06) 10
MAK / Mitrinovski (6899/12).....10
MAL / Micallef (17056/06) 12
POL / Brudnicka və başqaları (54723/00)..... 3
POL / Toziczka (29995/08).....10
RUM / Luka (34197/02)..... 3
RUM / Maszni (59892/00) 3
İSVR / Wettstein (33958/96)..... 8
SVK / Petrikova (42149/17) 13
SVN / Pecnik Alenka (44901/05).....11
SVN / Svarc və Kavnic (75617/01).....11
İSV / Langborger (11179/84) 6
TÜR / Bayrak (39429/98)..... 4
TÜR / Ciraklar (19601/92)..... 4
TÜR / Fazli Aslaner (36073/04) 11
TÜR / Ibrahim Gurkan (10987/10) 4
TÜR / Sertkaya (77113/01)..... 4
TÜR / Tanisma (32219/05)..... 4
BK / Findlay (22107/93)..... 4
BK / Grieves (57067/00) 5
BK / McGonnell (28488/95) 8
BK / Stafford (46295/99) 5
BK / Tsfayo (60860/00)..... 6
UKR / Agrokompleks (23465/03) 6
UKR / Lutsenko (6492/11).....14
UKR / Oleksandr Volkov (21722/11) 5, 6
UKR / Salov (65518/01) 6
UKR / Sovtransavto Holding (48553/99) 7
UKR / Tymoshenko (49872/11).....15